

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 oktyabr 2024-cü il №77 (2888) https://mod.gov.az Qiymətı 30 qəpik


*Reportaj*

## Vətən sevgisi - yüksək döyüş hazırlığı



Doğulub boya-başa çatdığın, suyunu içib, neməti ilə qidalandığın, acısına kədərlənib, sevincinə qürurlandığın yurddur Vətən. Bu Vətənin şərəfli bir adı var - Azərbaycan! Doğma Azərbaycanımızın şanlı tarixi, bu günü və işıqlı gələcəyi hamımız üçün əzizdir. Ölkəmiz asanlıqla bugünkü vəziyyətə gəlib çıxmayıb. Torpaqlarımız otuz ilə yaxın işğalda olub, bir milyondan çox həmyerlimiz doğma yurdlarından qaçqın düşüb. Bu torpaqların azadlığı uğrunda minlərlə gənc canından keçib. Tarixin şanlı səhifələrinə öz adlarını qızıl hərflərlə həkk edərək, ölməzlik zirvəsinə ucalmağı bacarıblar. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu siyasəti və igid oğullarımızın şücaəti hesabına ölkəmiz azadlığına, suverenliyinə qovuşub. İllərdir qaysaq bağlamış Qarabağ yaramız artıq öz şəfasını tapıb. Bu gün mədəniyyət paytaxtımız Şuşada, qədim şəhərimiz Xankəndidə, Xocalıda, bütöv Azərbaycanımızın hər bir guşəsində şanlı Azərbaycan bayrağı dalğalanmaqdadır. Bu qüruru bizlərə yaşadan hərbçilərimiz bu gün də gecə-gündüz, isti-soyuq demədən mətinliklə Vətən torpaqlarının keşiyində dayanırlar. "N" hərbi hissəsində güvənc yerimiz, qürurumuz olan, gözünü qırpmadan döyüş növbətçiliyi aparan oğullarımızla görüşməyin sevincini yaşayırıq. Onların cəsarətlə torpaqlarımızın keşiyində ayıq-sayıq dayandıqlarının şahidi oluruq. Döyüş mövqeyində bizi qarşılayan leytenant Camal Camalzadə bir neçə ildir ki, hərbi xidmətdədir. Vətən sevgisinin onun peşə seçimində xüsusi əhəmiyyət kəsb etdiyini bildirən zabitin sözlərinə görə, dağlıq ərazidə xidmətin çətinliklərinə baxmayaraq qalib Azərbaycan Ordusunda xidmət etməkdən qürur hissi keçirir. "Burada xidmət etmək məsuliyyətli, bir o qədər də şərəfli hissdir. Tabeliyimdə olan əsgərlər də cəsur və qorxmazdırlar. Onlar anlayırlar ki, düşməni 24 saat müşahidədə saxlamalıdırlar. Çox sevindirici haldır ki, heç bir əsgər döyüş növbətçiliyi aparmaqdan çəkinmir. Əsgərlərimizin döyüş ruhu, mənəvi-psixoloji vəziyyəti yüksək səviyyədədir, hər an istənilən tapşırığı icra etməyə qadir və hazırdırlar".

Bölməyə yeni gələn əsgərləri ilk olaraq necə təlimatlandırırsınız? - sualına gənc zabit cavab verərək bildirir: "Çətin relyefli mövqelərdə xidmət etmək, doğrudan da, cəsarətli və qətiyyətli olmağı tələb edir. Əgər əsgərin qəlbi Vətən sevgisi ilə döyünürsə, onu heç nə sarsıda bilməz. Əminliklə deyə bilərəm ki, Azərbaycan əsgərinin hər biri Vətən eşqi ilə alışıb yanan, vətənpərvərlik tərbiyəsi aşılanmış gənclərdir. Onlar hərbçi olmaqdan əlavə bir vətəndaş olaraq da öz məsuliyyətini dərk edir və yaxşı bilirlər ki, bu gün onlara torpaqlarımızın düşməndən qorunması kimi ən müqəddəs bir vəzifə etibar edilib. Hər bir əsgər fərqindədir ki, bu vəzifə qarşısında məsuliyyətini dərindən anlamalı, qoyulan hər tapşırığın öhdəsindən bacarıqla gəlməlidir".

Söhbət edə-edə əsgərlərimizə yaxınlaşaraq ətrafa nəzər salıram. Hər kəsin geyimi, səliqə-sahmanı könül oxşayır.

(Ardı 3-cü səhifədə)

## İtaliyada Trans-Regional Dəniz Gücü Simpoziumu keçirilib




*İtaliyanın Venesiya şəhərində 14-cü Trans-Regional Dəniz Gücü Simpoziumu keçirilib.*

Simpoziumun əsas gündəliyi dənizaltı mühitin qorunması və təhlükəsizliyin təmin edilməsi üçün ölkələrin bu sahədə öhdəliklərə təşviq edilməsi məqsədini daşıyır.

Müdafiə Nazirliyi xəbər verir ki, İtaliya Respublikasının Hərbi Dəniz Qüvvələrinin komandanı admiral Enriko Kredendinonun dəvətinə əsasən, Azərbaycan Respublikasının İtaliyadakı hərbi attaşelik aparatının nümayəndəsi də tədbirdə iştirak edib.

Tədbirin açılış mərasimində İtaliya Respublikasının müdafiə naziri cənab Quido Krosetto çıxış edərək qonaqları salamlayıb.

Trans-Regional Dəniz Gücü Simpoziumunda yüzə yaxın ölkənin Hərbi Dəniz Qüvvələrinin komandanı, eləcə də dörd yüzədək dəniz təşkilatının nümayəndəsi iştirak edib.




"Biz də öyrənə-öyrənə güclənirik!"
4-cü səhifədə



Bəşəri qürur
5-ci səhifədə



Cəsur döyüşçü, sadiq dost
6-cı səhifədə




"Əsgərə məktub" layihəsi uğurla davam edir
7-ci səhifədə

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi NATO nümayəndə heyəti ilə görüşüb

## Qonaqlar Şəhidlər xiyabanı və Hərbi Qənimətlər Parkını ziyarət ediblər





*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahının Baş direktoru general-leytenant Yanuş Adamçak ilə görüşüb.*

Müdafiə Nazirliyi xəbər verir ki, general-polkovnik Kərim Vəliyev qonaqları salamlayaraq NATO ilə münasibətlərin cari vəziyyətini yüksək qiymətləndirib və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbənin tarixi əhəmiyyətindən danışan Baş Qərargah rəisi hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu tərəfindən beynəlxalq humanitar hüququn norma və prinsiplərinə ciddi riayət edildiyini və mülki əhalinin hədəfə alınmadığını xüsusi qeyd edib.

"Ölkəmiz azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərini, eləcə də humanitar minatəmizləmə fəaliyyətini sürətlə davam etdirir. Qarşımızda duran əsas maneə Ermənistanın işğalı nəticəsində yaranmış mina terrorudur", - deyə general-polkovnik Kərim Vəliyev bildirib. Qonaqlar, həmçinin Azərbaycan-Ermənistan şərti sərhədində cari vəziyyət barədə də ətraflı məlumatlandırılıb.



General-polkovnik Kərim Vəliyev NATO-nun Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində bölmələrimizin hazırlığına böyük töhfə verildiyini bildirərək, əməkdaşlığımızın bundan sonra da davam etdirilməsinin zəruriliyini qeyd edib.

Baş Qərargah rəisi şərti sərhədin Ermənistan ərazisində Avropa İttifaqının müşahidəçi missiyasının yerləşdirilməsi, habelə regiondankənar bəzi ölkələrin, xüsusilə Fransanın Ermənistanı silahlandırmasının orada revanşist qüvvələrin baş qaldırmasına, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması və sülh prosesinə əngəl yaratmaqla Cənubi Qafqazda vəziyyətin gərginləşdirilməsinə səbəb olduğunu xüsusi vurğulayıb.

General-leytenant Yanuş Adamçak ölkəmizə səfərindən məmnunluğunu ifadə edib, Azərbaycan Ordusunun hərbi qulluqçularının NATO ilə tərəfdaşlıq çərçivəsində bütün sahələrdə fəaliyyətini yüksək qiymətləndirib, o cümlədən Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş və digər sülhməramlı missiyalarda verdiyi töhfəyə görə minnətdarlığını bildirib.

Görüşdə hərbi, hərbi təhsil sahəsində birgə əməkdaşlıq, regional təhlükəsizlik və digər məsələlər müzakirə edilib.

Səfər çərçivəsində NATO nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş 20 Yanvar və Birinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Qonaqlar, həmçinin Hərbi Qənimətlər Parkında olub, Vətən müharibəsi zamanı düşməndən qənimət götürülmüş atıcı silah, zirehli və xüsusi texnika, artilleriya qurğuları, raket kompleksləri və digər hərbi təyinatlı vasitələrə baxıblar.

Ölkəmizdə olduğu müddətdə NATO nümayəndə heyəti Heydər Əliyev adına Hərbi İnstitutu və Hərbi Dəniz Qüvvələrinin hərbi hissəsini də ziyarət edib.



# Azərbaycan və Belarus hərbi ekspertləri mühəndis-texniki təminat üzrə məsələləri müzakirə ediblər





*Azərbaycan və Belarus respublikalarının Müdafiə nazirlikləri arasında imzalanan 2024-cü il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Belarus Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyəti ölkəmizə səfər edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində qonaqlar Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində olublar.

Belarus nümayəndə heyətinə Mühəndis Qoşunlarının əsas fəaliyyət istiqamətlərinə dair brifinq təqdim olunub.

Mühəndis Qoşunları Baş İdarəsinin rəisi general-mayor Anar Kərimov qonaqlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan qələbədən sonra azad edilmiş ərazilərdə minaların təmizlənməsi üzrə görülən işlər barədə məlumat verib.

Sonra qarşılıqlı mümkün əməkdaşlıq perspektivləri və bu sahədə əlaqələrin inkişaf etdirilməsi istiqamətində təkliflər müzakirə edilib.

Səfərin növbəti günündə qonaqlar Mühəndis Qoşunları Baş İdarəsinin tabeliyindəki "N" hərbi hissəsində olublar.

Nümayəndə heyəti mühəndis bölmələrinin silahlanmasında olan silah-sursat, təchizat və texnika nümunələri, hərbi hissənin ərazisindəki mühəndis şəhərciyi ilə tanış olub.

# Tacikistan nümayəndə heyəti hərbi institutu ziyarət edib





Tacikistan Respublikası Müdafiə Nazirliyinin Kadrlar və Hərbi Təhsil İdarəsinin rəisi general-mayor Hafiz Cabor Əzizzodanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində qonaqlar Heydər Əliyev adına Hərbi İnstitutda olublar.

Nümayəndə heyətinə hərbi institutun tarixi və fəaliyyət istiqaməti barədə brifinq təqdim edilib.

Tacikistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmonun da iştirak etdiyi görüşdə hərbi təhsil sisteminin inkişaf perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyəti Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alan tacik kursantlarla görüşərək onlarla söhbət aparıb və təhsilləri ilə maraqlanıb.

Tacikistanlı qonaqlar institutun ərazisindəki muzeydə sərgilənən fotostendlə tanış olublar.

Nümayəndə heyəti daha sonra təhsil müəssisəsinin ərazisi, tədris korpusları, maddi-texniki bazası ilə tanış olub, kursantların tədris prosesinin gedişatı ilə maraqlanıb.

Səfər çərçivəsində qonaqlar, həmçinin Hərbi Qənimətlər Parkında olub, Vətən müharibəsi zamanı qənimət götürülmüş atıcı silah, zirehli və xüsusi texnika, artilleriya qurğuları, raket kompleksləri və digər hərbi təyinatlı vasitələrə baxıblar.



# MMU-da "Çin dili" kursunun açılış mərasimi keçirilib



*Milli Müdafiə Universitetinin (MMU) Hərbi İdarəetmə İnstitutunun Xarici dil mərkəzində "Çin dili" kursunun açılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimdə Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Din Tao, hərbi attaşesi Van Ley və digər qonaqlar iştirak ediblər.

Çıxış edənlər iki ölkə arasında əlaqələrin hər keçən gün möhkəmlənməsindən, Çin dilinin hərbi sahədə əlaqələrin inkişafına verəcəyi töhfələrdən bəhs edib, kurs iştirakçılarına uğurlar diləyiblər.

Mərasimin bədii hissəsində qonaqlara Çin milli rəqsi və "Çay sənəti" tamaşası təqdim edilib. Bədii kompozisiyalar mərasim iştirakçılarının marağına səbəb olub.

Milli Müdafiə Universitetində keçirilən "Çin dili" kursu cari ilin dekabr ayının 30-dək davam edəcək.

# Vətən sevgisi - yüksək döyüş hazırlığı



(Əvvəli 1-ci səhifədə)

Lənkəran rayonundan hərbi xidmətə çağırılan əsgər Əkbər Əlizadə "Vətənin müdafiəsində dayanmaq şərəfdir", - deyə söhbətə başlayır. "Vətəni qorumaq üçün əvvəlcə özünü qorumalısan. Bütün təhlükəsizlik qaydalarına əməl etməli, özün və əsgər yoldaşların üçün təhlükə yarada biləcək hallardan uzaq olmalısan. Bu səbəbdən bütün qaydalara riayət edir, hər an ayıq-sayıq, diqqətli xidmət aparırıq. Qarşı tərəfin bütün fəaliyyətini nəzarət altında saxlayırıq. Müşahidə zamanı aşkar olunan ən xırda bir hərəkəti belə komandirlərimizə məruzə edirik".

Ordu sıralarına Bakı şəhərindən çağırılan əsgər Səbuhi Məmmədzadə söhbətə qoşulur: "Gənc əsgər olduğum ilk gündən hərbi hissəmizdə yaradılan şəraiti görəndə, həqiqətən də, qüdrətli dövlətin vətəndaşı olduğumdan bir daha əmin oldum. Komandirlərimizin diqqət və qayğısını hər zaman öz üzərimizdə hiss edirik. Onlar hər zaman bizlərə Vətən müharibəsində qazanılan qələbədən, şəhidlərimizin igidliyindən söhbətlər edirlər. Onların döyüş yolu hər birimiz üçün nümunədir. Artıq müddətli həqiqi hərbi xidmətimi bitirməyimə az qalıb. Xidmət dövrümdə təcrübəli komandirlərimizin köməkliyi ilə hərb sənətinin bir çox incəliklərini öyrəndim. Tərxis olub ordudan ayrılsam da, hər zaman Vətənimin müdafiəsinə hazır olacağam", - əsgər deyir.

Əslən Zəngilan rayonundan olan əsgər Sübhan Məmmədli bizimlə düşüncələrini bölüşür: - Mənim ailəm o vaxtlar erməni işğalına məruz qalan Zəngilan rayonundan qaçqın düşüb. Hər zaman valideynlərim Zəngilan rayonunun füsunkar təbiətindən, havasından, suyundan, orada keçirdikləri xoş günlərdən ürək ağrısı ilə danışanda qəlbimdə bir həsrət alovlanırdı. 2020-ci ilin sentyabrında düşmən təxribatına cavab olaraq Ali Baş Komandanın "İrəli!" əmri ilə torpaqlarımız işğaldan azad edildi. Artıq Zəngilan kimi bütün işğalda olan rayonlarımız öz azadlığına qovuşdu. Bu xoşbəxtliyi cəsur hərbçilərimizə borcluyuq.

Əsgər Qəzənfər Rəfiyev də söhbətimizə qoşulur: - Bir gənc kimi şanlı Azərbaycan Ordusunda xidmət etmək mənim üçün qürurvericidir. Vətən anlayışı bizim üçün müqəddəsdir. Hər birimiz Vətəni özümüzə ikinci anamız bilmişik. Dünyada hər şeyin sonu var. Arzuların, xəyalların belə bir sonu olur. Ancaq bircə Vətənə olan sevgi, məhəbbət bitməz. Axı biz anamızı da son nəfəsimizə qədər sevirik. Bu gün burada analarımızı, əzizlərimizi, xalqımızı yadelli təhlükələrdən qorumaq üçün varıq. Xalqımız əmin ola bilər ki, torpaqlarımızın müdafiəsi etibarlı əllərdədir.



Digər əsgərlərimiz Rəşid Ağayev, Sənan Mürsəlov, Murad Ağayev, Ramil Quliyev və başqalarını da dinlədikcə qürurlanıram, fərəhlənirəm. Həqiqətən də, azərbaycanlıyam demək çox böyük sevincdir. Dövlətinlə, ordunla fəxr etmək əsl xoşbəxtlikdir. Əbəs yerə deməyiblər, torpaq qanla qarışanda Vətən olur. Biz bu şücaəti, qəhrəmanlığı tarix boyu göstərmişik. Azərbaycan oğullarının igidlikləri hər zaman dillərə dastan olub. Ərazi bütövlüyümüz uğrunda şəhidlər vermişik, zəfərlər qazanmışıq. Döyüş meydanından heç bir zaman qaçmamışıq. Çünki Azərbaycan əsgərinin qəlbindəki Vətən sevgisi ən güclü silahdan belə üstün olub. Bu sevgi qarşısında heç bir qüvvə dayanmağa, qəlbimizdəki vətənpərvərlik eşqini söndürməyə qadir deyildir.



**Baş leytenant
Oruc MUSTAFAYEV
"Azərbaycan Ordusu"**

# HDQ-nin hərbi qulluqçusu "Tələbələrin şərəf qılıncı" ilə təltif olunub







"Azərbaycan Respublikasının müdafiə naziri ilə İtaliya Respublikasının müdafiə naziri arasında Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin təlim və təhsili sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu"na əsasən, 2023-2024-cü tədris ilində Heydər Əliyev adına Hərbi İnstitutu fərqlənmə ilə bitirmiş və hazırda Hərbi Dəniz Qüvvələrində xidmət edən leytenant Pərvin Əhmədova "Tələbələrin şərəf qılıncı" xatirə hədiyyəsi və sertifikat təqdim edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Hərbi Dəniz Qüvvələrinin qərargahında keçirilən tədbirdə 1-ci dərəcəli kapitan Teymur Mürşüdov İtaliya Respublikasının Azərbaycan Respublikasındakı hərbi attaşesi 1-ci dərəcəli kapitan Cianfranko Vizzini ilə görüşüb.

Görüşdə hər iki ölkənin Hərbi Dəniz Qüvvələri arasında hərbi, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb, maraq doğuran məsələlər müzakirə olunub.

1-ci dərəcəli kapitan C.Vizzini "Tələbələrin şərəf qılıncı" xatirə hədiyyəsini və sertifikatı leytenant P.Əhmədova təqdim edib.

*Təlim*

# "Biz də öyrənə-öyrənə güclənirik!"

Payız yeli ağacların budağını daraqlayır. Bir qədər aralıda meşəlik, meşəliyə sarılmış nazik dumanlıq görünür. Könlümüz bizi həmin dumanlığın o üzünə çəkməkdədi. Neçə on illər əvvəl bu meşəliyin ətəklərindən keçən yollarla dağlara, ucalıqlarda mövqelənmiş əsgərlərimizin yanına çatmağa can atardıq. Əsgərlərimiz orada döyüş növbətçiliyi aparırdılar. İkinci Qarabağ müharibəsindən sonra o ucalıqların həndəvərləri də, o həndəvərlərdən dövlət sərhədlərimizəcən uzanan ərazilərimiz də düşməndən təmizləndi - ordumuz işğalı sonlandırdı.

Hərbi hissədə dərs-təlimdən əvvəl mayor Namiq Əzizov dedi ki, əsgərlərimiz onlara təhkim olunmuş silahların istismar xüsusiyyətlərini öyrənirlər. Bu proses müntəzəm davam etdiyindən onu tədris prosesi də adlandıra bilərik. Zabit əsgərlərin öyrənmə marağının Vətənə sevgidən yarandığını da bildirdi...

Gizir Rüstəm Bağıyev dəzgahlı iriçaplı pulemyotun taktiki-texniki xüsusiyyətləri mövzusunda dərsə başladı. Mövzu haqqında əsgərlərin bilgilərini öyrənmək üçün müəyyən suallar verir, sonra sualları ümumiləşdirən əyaniliyə keçid yaradır. Əsgərlər pulemyotun hissələrindən danışdılar. Biri digərinin fikrini davam etdirirdi. Mənə belə gəlirdi ki, bu üsul əsgərlərin diqqətliliyini nəzarətdə saxlama baxımından gərəklidir. Belə təkrarlama öyrətmə prosesinin dönməzliyini tənzimləyir.

Təkrarlama prosesindən sonra gizir R.Bağıyev əsgərlərin dediklərini ümumiləşdirdi, pulemyotun taktiki-texniki xüsusiyyətləri haqqında əsgərlərin bilgilərini tədris prosesi ilə uzlaşdırdı. Gizir bu silahın düşmənin atəş sektorunu, canlı qüvvəsini, mövqelərini, yüngül zirehli texnikalarını, aşağıdan uçan hava hücumu vasitələrini və s. məhv etmək üçün istifadə olunduğunu bildirdi. Əsgərlər bildikləri ni bir daha xatırladılar. Klassik pedaqogikada təkrarın tədris prosesində hansı səviyyədə səmərəli olduğunu gizir də yaxşı bilir, dərsdə iştirak edən əsgərlər də. Əsgərlər gizirin göstərişi ilə silahı söküb-yığırdı, söküb-yığma prosesinin təlimatda nəzərdə tutulan müddətdə aparılması giziri razı saldı. Əsgərlər silahın detalları haqqında da məlumat verdilər.

Gizir R.Bağıyevin sualına cavab olaraq əsgər Elmar Bayramov bildirdi ki, silahın heyəti dörd nəfərdən ibarətdir: manqa komandiri, tuşlayıcı, atıcı-daşıyıcı, atıcı-doldurucu. Əsgər onların hər birinin icra etdiyi vəzifələri də təmkinlə xatırlatdı. Belə xatırlatma biliyin səviyyəsinin göstəricisidi. Gizir əsgər E.Bayramovdan soruşdu ki, heyət üzvlərindən hansının icra etdiyi iş daha vacibdir? Elmar eyni təmkinlə "Ən vacibi həmin anlarda heyətin gördüyü işdir", - dedi. Cavab gizirin də könlünə yatdı, bizim də.

Əsgər Fərid Hüseynov bildirdi ki, pulemyotun atış uzaqlığı orta hesabla 2000 metrdir, yəni, düşmənin bu məsafədə yerləşən hədəfinə bu məsafədən təsirli zərbə vurmaq mümkündür. Pulemyotun dağıdıcı mərmiləri ilə düşmənin daha uzaqda yerləşən hədəflərinə də ciddi zərbələr vurmaq mümkündür. Düşmənin tikililəri dağıdılırdı, tikilidə daldalanan canlı qüvvəsi məhv edilirdi. Əsgər onu da bildirdi ki, dəzgahlı iriçaplı pulemyot döyüşən ordu hissələrinə atəş dəstəyi verməklə döyüşün gedişində əsaslı dönüş də yarada bilər. İkinci Qarabağ müharibəsində də, sonrakı hərbi əməliyyatlarda da belə olmuşdu. Neçə mövqe qələbəsinin qazanılmasında da bu silah da dönüş yaratmışdı...

Əsgər Bəhlul Vəlizadə dedi ki, digər atıcı silahlar kimi, bu pulemyotdan atış aparan tuşlayıcı da son dərəcədə diqqətli olmalıdır. Diqqətlilik öz yerində, ona həyəcanlanmaq olmaz. Həyəcanlanan tuşlayıcının atışları dəqiq olmur. Bunlar bizə qoşunlarda xidmətə başlayanda deyilmişdi, hər dərsdə də deyilir. Bildiklərimizi bir daha eşitməklə onlar daha etibarlı səviyyədə yaddaşımızda qalır.

Əsgər Oruc Nəzərbəyov əsgər yoldaşının sözünə qüvvət olaraq dedi ki, bu silah yüksək döyüş hazırlığına malik olan heyətin istifadəsində daha güclü olur. Fərid də, digər əsgərlər də, gizir də əsgərin fikrini bəyəndilər. Gizirin əsgərlərdən üzülməyən baxışlarını bir mətləbin ifadəsi bilirik: Siz yüksək döyüş hazırlığına malik əsgərlərsiniz...



Əsgər İmran Nadirov bildirdi ki, bu pulemyot döyüşdə bölməyə dəstək verə bilir, bu dəstək döyüşün qələbə ilə başa çatmasında əhəmiyyətli olur. Döyüş prosesində düşmənin aça bildiyi keçidi müdafiə olunan əsgər müəyyən müddətdə bu pulemyotla tam nəzarətdə saxlaya bilir, düşmənin bu keçiddən keçməsinə imkan vermir. Pulemyot optik cihazla təmin edilib, onun vasitəsilə uzaqlığı yaxınlaşdırmaq da, yaxınlığı bir qədər uzaqlaşdırmaq da, atışa uyarlı vəziyyətə gətirməklə atış məsafəsini tənzimləmək də mümkündür.

Əsgərlərdən biri gizirdən nəsə soruşdu. Bu "nəsə" pulemyotun texniki xüsusiyyətləri ilə bağlıdı. Gizir sualı suala aid olan başlanğıcdan izah edirdi. Mənə elə gəlirdi ki, belə izahetmə əsgərlərin hamısını razı salırdı.

Mayor N.Əzizov dedi ki, belə dərsləri sinif otaqlarında öyrətmək müəyyən qədər çətinliklər yaradır. Belə ki, pulemyotun ayrı-ayrı hissələrini hamıya eyni aydınlıqla, silahın istismar xüsusiyyətlərini ardıcıllıqla göstərmək və öyrətmək, öyrədilənlər arasında ciddi əlaqə yaratmaq üçün açıq hava daha məqsədəuyğundur. Açıq havada yarımdairəvi formatda başlayan və davam edən belə dərslərin tədris keyfiyyəti yüksək olur, bugünkü kimi...

İkinci Qarabağ müharibəsində bu silahın hərbi qüdrəti, təhkim olunduğu əsgərlərin hərbçi qüdrəti ordumuzu qələbələrə yaxınlaşdıran amillərdən idi.

Kəşfiyyatçılarımız Füzuli ətrafında müqavimətin gücləndirilməsi üçün düşmənə 3 ədəd yüngül zirehli texnika göndərildiyini müşahidə etmişdi. Komandanlıq bu vacib məlumatı əməliyyatın tərkib hissəsi etmişdi - nə qədər təhlükəli olsa da, dəzgahlı iriçaplı pulemyotunun xeyli qabağa çıxarılmasını, döyüş mövqeyi tutub zirehli texnikaları vurmağı əmr etmişdi. Əmr vaxtında yerinə yetirilmişdi. Düşmən həmin mövqedə müqaviməti davam etdirə bilməmişdi...

İkinci Qarabağ müharibəsinin ilk günlərində mühəndis-istehkam sədləri dağıdılmış düşmən səngərlərdən də, valların arxasından da, işğal etdiyi yaşayış məntəqələrindən də, uçurub-dağıtdığı evlərin daldasından da atışırdı. Belə döyüşlərdə döyüşçülərimiz düşməni mövqelərindən pulemyotlardan atış aparmaqla da üzə çıxardır, onları məhv edir, qələbə qazanırdı.

Əsgər Fərid Hüseynov dedi ki, komandirimizdən eşitmişəm ki, bu silah döyüşdə bir bölüyün qarşısını saxlaya bilir. Gizir R.Bağıyev əsgərin dediklərini təsdiqlədi: - Xudafərin ətrafında döyüşdə döyüşçülərimiz düşmənin əks-hücuma keçən bir bölüyünün qarşısını dəzgahlı iriçaplı pulemyotla saxlamışdı. Ağır itkiyə məruz qalan düşmən hücumu davam etdirə bilməmişdi. Bu silah döyüşənlərimizə həm üzbəüz döyüşdə, həm də arxadan ciddi kömək edə bilmişdi. Belə faktlar bu gün dərs-təlimə cəlb olunmuş əsgərlərimizin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində əhəmiyyətli olur. Mayor N.Əzizov gizirin dediklərini təsdiqlədi...

Dərs-təlim başa çatdı...

Payız yeli azalıb. Bir qədər aralıdakı meşəliyə baxdıq. Duman çəkilib. Göy üzünün göylüyü aydınlığıyla hiss olunandı...

**Rəşid HÜSEYNOV**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

Tibb xidməti

# Bəşəri qürur

*Çox nəcib, məsuliyyətli peşə olan həkim peşəsinin sahibləri məxsusi xarakterə, səbrə, diqqətliliyə, sakitliyə, ən əsası xeyirxahlıq kimi insani xüsusiyyətlərə malik olurlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: "Səhiyyə sahəsində çalışan, öz həyatlarını tibb xidmətinə həsr edən insanlar çox şərəfli adamlardır. Onların hər biri çalışmalıdır ki, bu şərəfli adı daim yüksəklərə qaldırsın".*



İkinci Qarabağ müharibəsində həkim hərbi qulluqçularımız da Hərbi Anda, dövlətə, peşələrinə sədaqət nümayiş etdirdilər. Onlar Vətən müharibəsində həm ön, həm də arxa cəbhədə böyük dəyanət, cəsarət və humanizm nümunələri yaratdılar. Yüzlərlə yaralını həyata qaytaran həkimlər sırasında Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının qastroenterologiya bölməsinin baş ordinatoru tibb xidməti polkovnik-leytenantı Kamran Məlikov da vardı.

Tibb xidməti polkovnik-leytenantı Kamran Məlikov 1981-ci ildə Goranboy rayonunun Qızılhacılı kəndində ziyalı ailəsində dünyaya göz açıb. Danılmaz faktdır ki, vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir. Valideynləri müəllim olan yeniyetmə Kamran uşaq yaşlarından Vətənə, insanlara sevgi, yardım hissi ilə formalaşmışdı. Uşaqlıq illəri Vətənimizin ağır günlərinə təsadüf edən gənc valideynlərinin söhbətlərində, televizorda 20 Yanvar faciəsini, Xocalı soyqırımını, Qarabağın necə xarabalığa çevrilməsini, yaşlıların, qız-gəlinlərin, körpələrin göz yaşlarını, ahnaləsini eşidir və gördü. Bunlar onun peşə seçiminə təsirsiz ötüşməzdi, ötüşmədi, məhz bu müqəddəs peşəni seçməyinə səbəb oldu, bəşəri duyğularla yaşayan gənci bu sənətə yönləndirən daxilindəki vətənpərvərlik hissləri özünü büruzə verərək onu hərbi həkim olmağa istiqamətləndirdi. 1999-cu ildə Azərbaycan Tibb Universitetinə qəbul oldu. 2005-ci ildə Hərbi Tibb Fakültəsini bitirərək, ön xətt hərbi hissələrindən birində xidmətə başladı. Beləliklə, tarixin müəyyən mərhələsindən keçən gənc həkim - gənc zabit həkim və hərbçi peşələrini həyat yoluna işıq seçdi.

Kamran həkim dedi ki, vətənpərvərlik insanın ölkəsinə duyduğu sevgi və bağlılığıdır. "Hər kəs varlığıyla Vətənini öz şəxsiyyətində, mənində yaşatmalıdır. Yaşatmalıdır ki, Vətən yaşasın".

Tibb xidməti polkovnik-leytenantı qeyd etdi ki, öz işinə ürəkdən bağlı olmayan, peşəsinin vacibliyini, ciddiliyini dərk etməyən, çətinliklərdən, təhlükələrdən qorxan, bütün həyatını insanların sağlamlığına həsr etməyən həkim, əslində, həkim deyil. O, həm də öyrənməyə və özünü inkişaf etdirməyə çalışmalı, Vətəninə, xalqına məsuliyyətlə xidmət etməyi qarşısına məqsəd qoymalıdır.

Xidmət etdiyi sahə haqqında məlumat verən təcrübəli qastroenteroloq vurğuladı ki, həzm orqanlarının müayinə və müalicəsi ilə məşğul olduğu bu sahəyə, həmçinin mədəaltı vəzi, qaraciyər, öd kisəsi və axacaqlar da daxildir. Həzm sistemi xəstəliklərinin uğurlu müalicəsinə ilk addım diaqnostikadan başlayır. Burada hepatit xəstələrinin müasir antiviral (peqasys, copequs) yollarla müalicəsi uğurla həyata keçirilir. Bundan başqa, qaraciyər biopsisi, müalicə diaqnostikası, serrozlu xəstələrdə parasentez prosesi aparılır. Xəstələrə keyfiyyətli tibbi xidmət göstərilməsi üçün müasir şərait və imkanlarımız mövcuddur.

Böyük Qələbənin başlanğıcı olan Aprel döyüşlərində Azərbaycan Ordusu tariximizə şanlı bir səhifə yazdı. Tibb xidməti polkovnik-leytenantı Kamran Məlikov Lələtəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə yaralıların təxliyəsinə və ilkin tibbi yardım göstərilməsinə rəhbərlik edib. Müdafiə naziri adından fəxri fərmanla təltif olunan həkim bildirdi ki, Aprel döyüşləri işğal olunmuş ərazilərimizin azad ediləcəyinə inamın döyüşləri oldu. "Bu döyüşlər Azərbaycan Ordusunun qalib ordu olacağına, torpaqlarımızın işğaldan azad ediləcəyinə əminlik döyüşləri idi. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi. Aprel Zəfəri xalqımızın mənəvi qələbəsi oldu".

Vətən müharibəsi Azərbaycan dövlətinin, dövlətçiliyinin, Azərbaycan əsgərinin gücünün, Ali Baş Komandanın sərkərdəlik qüdrətinin təsdiqi oldu.

Vətən müharibəsinin ilk günlərindən yaralıların təxliyə edilməsində və tərəpevtik yardım göstərilməsində iştirak edən tibb xidməti polkovnik-leytenantı vurğuladı ki, İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun tibbi təminatının yüksək səviyyədə olduğunu, Azərbaycan həkiminin fədakarlığını təsdiqlədi. "Yaralıların müalicəsi və tibbi təminatı müharibənin ilk günlərindən Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsən nəzarəti altında idi. Müharibənin 4-cü günündə dövlət başçısı və birinci xanım yaralanan, Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında müalicə olunan hərbçiləri ziyarət etdilər. Bu, dövlət başçısının döyüşçülərə olan ehtiramının təzahürü idi.

Vətən müharibəsində hərbi təbabətin fəaliyyəti təlimata uyğun təşkil edilmişdi. Oktyabrın 3-dən 25-dək Hadrut istiqamətinə, oktyabrın 26-dan noyabrın 22-dək Füzuli istiqamətinə ezam olunaraq, burada yaralıların müayinəsinin və müalicəsinin, reabilitasiyasının təşkili ilə məşğul olmuşam. Vətən müharibəsinin getdiyi o günlərdə tibb xidməti də 24 saat xidmətdəydi", - tibb xidməti polkovnik-leytenantı dedi.

Vətən müharibəsində həkimlərimiz döyüş meydanlarında da, düşmənin atəşi altında da yaralılara yardım göstərirdilər. Bu, Vətən müharibəsi dövründə tibb işçilərinin döyüşü idi - yaralıların həyatı uğrunda aparılan döyüş.

Ağır döyüşlər getdiyi o günlərdə həkimlərimiz yaralıların qısa müddətdə müalicə olunaraq xidmətə qayıtmaları üçün əllərindən gələni edirdilər. Baxışları uzaqlara dikilən tibb xidməti polkovnik-leytenantı qeyd etdi ki, müharibənin heç bir anını unutmaq mümkün deyil. "O günlərdə hər kəsin ürəyi Vətən üçün döyünürdü. Vətəndaşlarımız əllərindən gələni əsirgəmirdilər. Müharibənin ağır nəticələrini ilk olaraq həkimlər aradan qaldırırdılar. Döyüşçülərimizin yarasına onlar məlhəm olurdular. Peşəkar həkimlərimizin səyi nəticəsində neçə-neçə döyüşçünün həyatı xilas edildi. Hərbçi həkimlərimiz yüksək fədakarlıq nümayiş etdirərək yaralılarımızı döyüşlərdən, güllə atəşi altından çıxarda bilirdilər, yardım edib təxliyəsini təşkil edirdilər. O anlarda elə hadisələrin şahidi olurduq ki, qürurdan gözlərimiz yaşarırdı, ürəyimiz dağa dönürdü. Yaralı döyüşçülərimiz yaralarının ağırlığının fərqinə belə varmadan yoldaşlarının yanına qayıtmağa can atırdılar. Hamısı bir söz deyirdi: "İllərdi bu günü gözləyirdik. Mən burada yox, döyüşdə, yoldaşlarımın yanında olmalıyam...".

Həmsöhbətimin müraciət edən xəstələrə mehriban, səmimi davranışı diqqətimdən yayınmır, hər kəsə doğması kimi davranır, can yandırır. Kamran həkim deyir ki, müharibədən sonra ona yaxınlaşıb minnətdarlıq edənlərin təkcə sağlamlıqlarını deyil, həyatlarını da ona borclu olduqlarını deyərkən gözlərindəki sözlərlə ifadə olunması çətin olan sevgi heç nə ilə müqayisə oluna bilməz.

Bu gün işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri bu yerlərə yenidən həyat verir. Qarabağ iqtisadi rayonunda aparılan yenidənqurma işləri beynəlxalq aləmin də diqqət mərkəzindədir. Kamran həkim o yerlərə erməni faşistlərinin vurduğu ciddi ziyanı öz gözləri ilə görən biri kimi sürətlə aparılan bu dəyişimdən - quruculuq-abadlıq işlərindən qürur hissi keçirir.

Kamran həkim qalib ordunun həm həkimi, həm də zabiti olmağı ilə qürurlanır. Gözəl qürurdur, bəşəri qürurdur...

**Kapitan**
**Günay TAĞIYEVA**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

Gənc zabitlərimiz

# "Hərbçi həyatı yaşamaq çox şərəflidir"

Azərbaycan Ordusunun sıralarında xidmət edən hər bir zabit döyüş və mənəvi-psixoloji hazırlıqlarını daim artırır, arsenalımıza daxil olan dünyanın ən müasir texnikalarının idarə edilməsi istiqamətində və təlimlərdə yüksək peşəkarlıq nümunələri göstərir. 44 günlük Vətən müharibəsində və ordumuzun həyata keçirdiyi digər uğurlu döyüş əməliyyatlarında bu bir daha təsdiq olundu. Yüksək ixtisaslı peşəkar zabitlərimizin sayının günbəgün artması ordumuzun kadr potensialının daha da gücləndirilməsinə möhkəm zəmin yaradır. Bunun nəticəsidir ki, Vətənə sədaqət andı içərək, əsl Azərbaycan oğluna xas bir qürurla öz Vətəninə, torpağına, dövlətinə və xalqına xidmət edəcəklərinə söz verən gənc zabitlərin simalarında məğrurluğun ifadəsinin şahidi oluruq. Vətənin müdafiəsində əzmlə dayanmağı özlərinə həyat amalı seçən gənclərimiz bu şərəfli peşənin məsuliyyətini dərindən dərk edir və döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsində yüksək bacarıq nümayiş etdirirlər.

"N" hərbi hissəsində gənc zabit Cavid Quliyev haqqında qeydlərimizi götürdük. Öyrəndik ki, Cavid nümunəvi xidməti ilə seçilən zabitlərdəndir. O, həm şəxsi heyətin, həm də yuxarı komandirlərinin rəğbətini qazanıb.

Kapitan C.Quliyev 6 sentyabr 1993-cü ildə Yevlax şəhərində anadan olub. Yevlax şəhər 5 saylı orta məktəbdə təhsil alan Cavid özünün və valideynlərinin qərarı ilə ömrünü müqəddəs hərbi peşəyə bağlamağı qarşısına məqsəd qoyur. 2009-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı olub. 2012-ci ildə hərbi liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olur. O, burada hərb elminin sirlərinə dərindən yiyələnir, gələcəkdə peşəkar zabitlərdən olmaq üçün səylə və məsuliyyətlə çalışır. Təhsilini müvəffəqiyyətlə başa vuran Cavid "Motoatıcı" ixtisasına yiyələnir.



Bu gün o, arzusunda olduğu yerdədir: ordumuzun peşəkar zabitləri sırasında doğma Vətənimizin keşiyində əzmlə, qürurla dayanıb.

Cəld, çevik hərəkətləri ilə diqqətimizi çəkən zabit bildirdi ki, təlim və məşğələlərdə yeni-yeni təcrübələr qazanılır. "Mən orta məktəbdə rus dili bölməsində təhsil alırdım. Hələ kiçik yaşlarımdan müharibəyə aid filmləri izləməyi sevirdim. "9-cu bölük", "Nəfəs", "Dağ" filmlərinə böyük maraqla, həm də dəfələrlə baxmışam. Özümü filmdə təsvir edilən müharibə səhnələrində hiss edirdim. Zabit həyatı yaşamaq çox şərəflidir. Bu qüruru bizə aldığımız hərbi təhsil, keçdiyimiz hərbi xidmət dövrü yaşadır. Peşəkar zabit kimi formalaşmağımızda təlimlərin böyük əhəmiyyəti var. Bilirsiniz ki, təlimlər, dərslər döyüş hazırlığı planına əsasən keçirilir. Bizim ən böyük vəzifəmiz döyüş və mənəvi-psixoloji hazırlığımızı artırmaqdır. Ordumuzun 44 günlük Vətən müharibəsində, digər əməliyyatlarda qazandığı qələbələrdən sonra işğaldan azad olunmuş ərazilərimizdə yaradılan yeni bölmələrimiz daha da möhkəmlənir və şəxsi heyətin burada xidmət aparmağı olduqca qürurvericidir".

Addımladığı bu çətin, eyni zamanda, şərəfli yolda daim döyüş hazırlığını artıracağını, komandirlərinin bilik və bacarıqlarından bəhrələnərək ordumuzun peşəkar zabitlərindən biri olacağını deyir. "Hər birimiz qanımızla, canımızla, bütün varlığımızla Vətənimizi qorumağa borcluyuq. Biz Vətən müdafiəçiləriyik. Xalqımız bizə güvənir. Böyük şairimiz Məmməd Araz deyirdi: "Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim". Bu misraları hələ orta məktəb illərindən əzbərləmişdim. Çıxdığım çətin, şərəfli yola daim nur salan bu misralar bizə vətənpərvərlik kimi ülvi hisslər aşılayır. 44 günlük Vətən müharibəsində ordumuzun qazandığı Böyük Zəfər xalqımızı daha parlaq gələcəyə ruhlandırır".

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Rəşadəti, igidliyi ilə şəhadətə yüksəldi



Vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalanların xatirəsi onların layiqli davamçıları olan Vətən müdafiəçiləri tərəfindən həmişə böyük ehtiramla yad olunur, xatirələri əziz tutulur. Hərbi hissə və birləşmələrdə keçirilən tədbirlərdə onların həyat yolu, göstərdikləri rəşadətlər, igidliklər haqqında ətraflı danışılır. Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə döyüşlərdə rəşadəti və igidliyi ilə seçilən şəhid kapitan Saleh Möhübbət oğlu Qurbanovun xatirəsinə həsr olunmuş anım tədbiri keçirildi.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Mərkəzin əməkdaşları bildirdilər ki, kapitan Saleh Qurbanov vətənpərvər, cəsarətli, yenilməz bir zabit kimi tanınıb. Döyüşlərdə göstərdiyi şücaətlərə görə silahdaşları onu "Qartal" ləqəbi ilə çağırıblar. O, Vətənə, xalqa xidməti həmişə həyatının mənası, məramı kimi qarşısına məqsəd qoyub. Hərbçi peşəsinə yeniyetməlik çağlarından böyük maraq göstərib.

Saleh Qurbanov 14 sentyabr 1990-cı ildə Xızı rayonunun Giləzi qəsəbəsində anadan olub. Saleh böyüdükcə ailədə, təhsil aldığı sevimli şairimiz Mikayıl Müşfiqin adını daşıyan məktəbdə isə hamının rəğbətini qazanıb. Çalışqan, intizamlı, əlaçı şagird kimi tanınıb. İdmana, hərbi sahəyə həmişə böyük maraq göstərib. Sumqayıt Dövlət Universitetinin tələbəsi olub. Təhsilini başa vurduqdan sonra müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hərbçi peşəsinə olan marağı, istəyi daha da artıb. Beləliklə, o, zabit olmaq istəyi ilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı" kursuna daxil olub. Kursu müvəffəqiyyətlə bitirib. Ona "leytenant" hərbi rütbəsinin təqdim edildiyi günü həyatının unudulmaz, tarixi günü kimi qiymətləndirib. Göstərilən etimadı doğruldacağını, Azərbaycan zabiti kimi şərəfli adı həmişə uca tutacağını bildirib. "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb. Gənc zabit vəzifəsinin öhdəsindən bacarıqla gəlib. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksək olması üçün bilik və bacarığını əsirgəməyib. Düşmən təxribatlarının qarşısının alınmasında silahdaşları ilə birlikdə əsil vətənpərvərlik nümunəsi göstərib.

2020-ci ilin 27 sentyabrında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev əks-hücum əmri verdi. İlk gündən üstünlük qazanan şanlı ordumuz Vətən torpaqlarını işğalçılardan azad etməyə başladı. Bu döyüş əməliyyatlarında böyük rəşadət, hünər göstərən kapitan Saleh Qurbanov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olundu.

Vətən müharibəsindən sonra daha böyük məsuliyyət hissi ilə xidmətini davam etdirən Saleh Qurbanov tabor komandiri kimi tabeçiliyindəki şəxsi heyətin döyüş və vətənpərvərlik ruhunun yüksək olmasına çalışırdı. Təlim və məşğələlərin yüksək səviyyədə keçirilməsinə nail olurdu.

2022-ci ildə Ermənistan ordu hissələri yenidən atəşkəsi pozaraq təxribat törətdilər. Keçirilən "Qisas" əməliyyatında ordumuz düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv etdi. Kapitan Saleh Qurbanov döyüşlər zamanı çox sevdiyi Vətəni uğrunda şəhidlik zirvəsinə ucaldı. O, böyüyüb boya-başa çatdığı Giləzi qəsəbəsinin kənd qəbiristanlığında torpağa tapşırıldı. Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərdiyinə, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə kapitan Saleh Qurbanov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olundu.

Onun əziz xatirəsini soydaşlarımız heç vaxt unutmur, həmişə böyük ehtiramla yad edirlər. Sonra hərbi qulluqçular şəhidlər guşəsini ziyarət edərək onlara hörmət və ehtiramlarını bildirdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Şəhid Toğrul Feyzizadə



Tarixi zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsində Azərbaycan oğulları böyük igidliklər göstərdilər.

Vətənə ürəkdən bağlı olan, müharibənin ilk günündən döyüşlərə atılan igid oğullarımızdan biri də şəhid əsgər Toğrul Feyzizadədir. 2002-ci il aprelin 15-də Culfa şəhərində dünyaya göz açan şəhidimiz ailənin ilk övladı idi.

Atası İlqar Feyziyev dedi ki, Toğrul hələ orta məktəbdə oxuduğu illərdə vətənpərvər bir gənc kimi yetişib, işğal altında olan torpaqlarımızın azadlığını daim düşünən gənclərdən olub.

"O inanırdı ki, gec-tez torpaqlarımız düşməndən azad olunacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq. Bütün igidlərimiz kimi, Toğrul da yaxşı bilirdi ki, işğalda olan torpaqlarımız həsrətlə yolumuzu gözləyir".

Bu arzu ilə Toğrul Feyzizadə 2020-ci ildə düşmənlə təmas xəttində yerləşən hərbi hissələrimizin birində xidmətə başlayır. Xidmətin ilk günlərindən Toğrul öz arzusunu komandirinə bildirir: "Mən snayper taqımında olmaq istəyirəm". 18 yaşlı əsgərin bu arzusu komandirə maraqlı gəlir. Hər şeydən əvvəl ona görə ki, snayperlik çox çətin işdir. Hələ atıcılıq məharətinə yiyələnmək bir yana, bunun saatlarla torpaqda, qar üzərində səbirlə gözləməyi var, aclığı, susuzluğu var.

Mahir snayper olmaq üçün qorxmazlıq, düşmənə nifrət, Vətən yolunda canını qurban verməyə hazır olmaq azdır. Hər şeydən əvvəl soyuqqanlı və səbirli olmalısan. Saatlarla bir nöqtədən gözlərini çəkməməyi bacarmalısan. Güllənin hədəfə dəyəcəyinə, düşməni məhv edəcəyinə tam əmin olduqdan sonra atəş açmaq olar. Güllənin boşa çıxması isə onun özünün ölümüdür.

Seçimində qətiyyətli olan Toğrul müvafiq kursu uğurla başa vurur.

Müharibənin ilk günlərində aldığı döyüş tapşırığına əsasən pusquda dayanan Toğrul adəti üzrə hər dəfə silahından çıxan mərmi hədəfə dəyəndə silahını öpər, düşmənin itkilər verdiyini gördükcə qürur duyardı.

"Sonuncu dəfə 2020-ci il noyabrın 1-də gecə saat 01:30 radələrində telefon əlaqəsi yaratdıq. Dedi ki, ata darıxmayın, tezliklə düşmən üzərində layiqli qələbə çalıb, torpaqlarımızı işğaldan azad edəcəyik. Çalışacağam ki, hər zaman sizin başınızı uca edim".

2020-ci il noyabrın 6-da Toğrul Feyzizadənin də tərkibində olduğu bölmə çox mühüm strateji əhəmiyyətə malik Qızılqaya yüksəkliyini azad etmək əmrini almışdı.

Qarşıda ciddi maneələr, minalanmış sahələr, çətinliklər dayanmışdı. Ancaq Toğrul kimi igidlərimizin şücaəti sayəsində düşmənin çox güclü müqavimət göstərdiyi strateji Qızılqaya yüksəkliyi ordumuzun bölmələrinin nəzarətinə keçir və həmin yüksəklikdə şanlı bayrağımız dalğalanan zaman ağır yaralanan Toğrul isə ən ali məqama - şəhidlik zirvəsinə yüksəlir. Döyüş yoldaşları deyirdilər ki, o, çox dözümlü idi. Yaralı olsa da, döyüş meydanında sona qədər vuruşdu.

2020-ci il noyabrın 7-də şəhid Feyzizadə Toğrul İlqar oğlu Binə qəsəbəsində torpağa tapşırıldı. Toğrul və onun kimi yenilməz igidlərimiz işğalda qalmış torpaqlarımızın azadlığı uğrunda canlarından keçdilər, ancaq Vətən torpağından pay vermədilər.

Xalqımıza qələbə sevinci bəxş edən, bu yolda canından, qanından keçən igid Vətən oğullarından olan şəhid əsgər Toğrul Feyzizadə torpaqlarımızın azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda şücaət göstərib, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Nuray NƏZƏROVA**
**Bakı şəhəri**

# Cəsur döyüşçü, sadiq dost

Əsaya söykənərək hərəkət fəaliyyətini tənzimləyən, sinəsində bərq vuran medallarla döyüşlərdə yaralanan bir hərbçi televiziyanın həyətinə daxil oldu. Sinəsində tək medallar deyil, həm də deyiləcək sözlər var idi. Oturduq, həmsöhbət olduq. Babək şəhərindən gəlmişdi. Bu ilin aprelində Babəkdə ucalan binalardan birində dövlətimiz tərəfindən ikiotaqlı mənzillə təmin olunan Röyal Abdullazadə əslən Təzəkənddəndir. (hazırda Kəngərli rayonuna tabedir). Orta məktəbi də öz doğma kəndində bitirib. Deyir ki, Naxçıvanda xidmət edən hərbçi ailəsinin oğlu İmran Sultanovla dostlaşmışdıq. "Aprel döyüşlərində İmranın qardaşı şəhid oldu. Bu, mənə çox ağır təsir etdi. Vətən torpaqlarının işğalda qalması, Xocalı faciəsi ən ağrılı yerim idi. 2019-cu ildə xüsusi təyinatlı bölmələrdə xidmətə başladım. "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə hərbi təlimində və digər hərbi təlimlərdə iştirak etmişəm. Keçirilən təlimlər bizim döyüş bacarıqlarımızın artırılmasına xidmət edirdi. Təlimlərin nəticəsi, təbii ki, döyüş meydanında bariz şəkildə göründü. Nəinki xalqımız, bütün dünya Azərbaycan Ordusunun hansı gücə malik olduğunu gördü. Oktyabrın 11-də bizim heyət döyüş bölgəsinə yollandı. Döyüş yolumuz Cəbrayıldan başladı. İki qrupa bölündük. Bizim qrupa bu döyüşlərdə şəhidlik zirvəsinə yüksələn Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Anar Əliyev rəhbərlik edirdi. Ərazıyə nabələd idik. Amma torpağın doğmalığı bizə güc verirdi. Şəhidlərimizin qisasını almaq, torpaqlarımızı azad etmək başlıca amalımız idi. Bu amalla Cəbrayılın 3 kəndinin - Maşanlı, Doşulu, Çaxırlı kəndlərinin azad olunmasında iştirak etdik. 18-dən 19-na keçən gecə Xocavənd istiqamətində hərəkət etdik. Xocavənd rayonunun ətrafındakı yüksəkliklərin və Tuğ kəndinin düşməndən təmizlənməsi uğrunda gedən döyüşlərdə şəhid verdik, yaralılarımız oldu. Minamyot partlayışı nəticəsində qapalı kəllə-beyin travması aldım. Uşaqlıq dostum, silahdaşım Rasim Ramazanov düşmən gülləsinə tuş gəldi. Sürünə-sürünə yanına gedib onu olduğu yerdən çıxardım. Qollarımda şəhid oldu, ayağa qalxıb yenidən hərəkət etmək istədikdə snayper gülləsindən sol ayağımdan yaralandım. Huşumu itirdim. 24 saat sonra məni tapıblar. İlkin tibbi yardım ilə 4 gün düşmənin atəş altında saxladığı ərazidə qalmışam, təxliyə edə bilməyiblər. Sonra Füzuli rayon Mərkəzi Xəstəxanasına aparıblar. Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında müalicəm davam edib. Səhhətim qismən normallaşandan sonra 2021-ci il yanvarın 4-də Naxçıvana qayıtdım. 2023-cü ilin dekabrında yenidən ağrılarım başladı. Təkrar əməliyyat olundum. Seçdiyimiz yol çətin yoldur, sağlamlığımı itirdim, amma şərəfli yoldur. Şəhidlərimizin qisası alındı, Xocalının yaraları sarındı, Qarabağda yenidən həyat canlanır. Necə sevinməyəsən?!



Döyüşə gedəndə qızım Nuray məni yola salmışdı. Ona söz verdiyim kimi geri döndüm. Oğul övladım dünyaya gəldi. Dostumun sonuncu vəsiyyətini yerinə yetirdim. Oğlum şəhid Rasim Ramazanovun adını daşıyır. Onun kimi cəsur, igid, vətənpərvər olacağına inanıram".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Röyal Abdullazadə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, "Döyüşdə fərqlənməyə görə", "Şücaətə görə", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Röyal sağlamlığını itirib, yaxın dostu qollarında can verib, silahdaşlarını itirib. Hər şeyə rəğmən ayaqdadır. İtirdiyi silahdaşlarının əziz xatirəsini yaşatmaq üçün, Vətənə əsgər yetişdirmək üçün, gənclərə örnək olmaq üçün. Vətənin cəsur döyüşçüsü, sadiq dost, biz bu torpağın bir parçası olaraq sənə, sizlərə minnətdarıq. Sədaqətli xidmətiniz, şücaətiniz, vətənpərvərliyiniz sayəsində torpaqlarımıza qovuşduq. Bu gün Azərbaycanın Dövlət Bayrağı suverenliyimizin tam bərqərar olduğu bütün ərazilərdə qürurla dalğalanır. Xoşbəxtik, qürurluyuq. Qoca tarixdə hər zaman sizinlə qürur duyacaq!

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Xocavənddə Hərbi Prokurorluq Müdafiə Nazirliyi ilə birlikdə tədbir keçirib







Ümummilli Lider Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli hərbi qulluqçuları Xocavənddə rayon rəhbərliyinin iştirakı ilə birgə tədbir keçiriblər.

Hərbi Prokurorluqdan AZƏRTAC-a bildirilib ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, döyüşlərdə yaralananlara şəfa arzulanıb.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Füzuli hərbi prokuroru, ədliyyə polkovniki Elçin Hacıyev, hərbi prokurorun böyük köməkçisi, baş ədliyyə müşaviri Firad Əliyev və başqaları çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən, onun siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 21 ildə ölkəmizdə həyata keçirilən köklü islahatlardan, müxtəlif sahələrdə qazanılan uğurlardan, o cümlədən Silahlı Qüvvələrimizin formalaşdırılması, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılması və etibarlı qorunmasından bəhs ediblər. Əldə edilən uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərdiyi dəstək və xalq-dövlət birliyi xüsusi qeyd edilib. Həmçinin tədbirdə Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Dövlət Sərhəd Xidməti ilə birgə fəaliyyəti vurğulanıb.

Daha sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb. Tədbirdə hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, eləcə də onların qayğı və problemləri ilə maraqlanılıb.

Tədbir başa çatandan sonra ağaclar əkilib.

# “Əsgərə məktub” layihəsi uğurla davam edir




Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, ordu ilə cəmiyyət arasında əlaqələrin daha da möhkəmləndirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi və asudə vaxtının səmərəli təşkil olunması məqsədilə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən mütəmadi olaraq mədəni-kütləvi tədbirlər keçirilir. Tədbirlər arasında geniş ictimaiyyət tərəfindən rəğbətlə qarşılanan "Əsgərə məktub" layihəsini xüsusi vurğulamaq olar. Bu layihə çərçivəsində növbəti tədbirlər keçirildi. Tədbirlərdə icra hakimiyyətlərinin və ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, məktəblilər, Vətən müharibəsi iştirakçıları və digər rəsmi qonaqlar iştirak etdilər. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı, ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Tədbir iştirakçıları işğaldan azad edilmiş ərazilərdə xidmət edən əsgərlərə qürur dolu məktublar ünvanladılar. Mərkəzin əməkdaşları layihədə iştirak edənlərə minnətdarlıqlarını bildirdilər.

* * *

Xalq şairi Səməd Vurğunun adını daşıyan istirahət parkında keçirilən tədbirdə Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov çıxış edərək bildirdi ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi, siyasi, hərbi və mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər, milli şüurun oyanışı istiqamətində gördüyü böyük işlər olmasaydı, biz bu gün Azərbaycanın müstəqil siyasi xəttə malik suveren dövlət kimi mövcudluğundan danışa bilməzdik. "Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra apardığı məqsədyönlü və qətiyyətli siyasət nəticəsində Azərbaycan Ordusu formalaşdırıldı, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda fərarilik hallarının kökü kəsildi, hərbi intizam möhkəmləndirildi. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan qalib orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biridir. Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də Ulu Öndərin siyasi kursu onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfərimiz və ondan sonra ordumuzun həyata keçirdiyi uğurlu əməliyyatlar, 2023-cü ilin 19-20 sentyabr tarixlərində ərazi bütövlüyümüzün tam bərpa olunması ilə başa çatan antiterror əməliyyatı Ulu Öndərin ideyalarına sədaqətin, inam və etibarın parlaq təzahürüdür. Tarixi Zəfərlərdən sonra da Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun hərb elminin son nailiyyətlərinə əsaslanan müasir döyüş vasitələri ilə təmin olunmasına xüsusi diqqət yetirilir. Ölkəmizin etibarlı müdafiə olunması üçün zəruri tədbirlər həyata keçirilir".

Çıxışına davam edən icra hakimiyyətinin başçısı onu da bildirdi ki, ağstafalı gənclər də 44 günlük Vətən müharibəsində igidliklə, şücaətlə döyüşdülər. O vurğuladı ki, bu gün keçirdiyimiz tədbir də gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə xidmət edir, həmçinin ordu ilə xalqımızın birliyini, həmrəyliyini nümayiş etdirir. Vətən müdafiəçilərinin onlara göstərilən böyük etimadı həmişə doğruldacaqlarına Azərbaycan xalqının hər zaman inandığını qeyd etdi.

* * *




Gəncə şəhərində müstəqilliyimizin, dövlətçiliyimizin rəmzi olan Bayraq Meydanında keçirilən tədbirdə Mərkəzin əməkdaşları layihə haqqında məlumat verərək bildirdilər ki, artıq bir neçə ildir ki, bu layihə rayon və şəhərlərimizdə həyata keçirilir. Əsas məqsəd Vətənimizin keşiyində dayanan mərd, mübariz, cəsur oğullara mənəvi cəhətdən dəstək olmaqdır. 44 günlük Vətən müharibəsi zamanı ordu ilə xalqın yenilməz birliyini, həmrəyliyini, xalqımızın tükənməz Vətən sevgisini bütün dünyaya nümayiş etdirdik. Tarixi qələbədən sonra ölkəmizin həyatında yeni dövr başlandı. Ordumuzun müasir hərb elminin son nailiyyətləri əsasında inkişaf etdirilməsini qarşıya məqsəd qoyan Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ölkəmizin müdafiəsinin təmin olunmasının birinci dərəcəli vəzifə olduğunu qətiyyətlə bildirdi və bu istiqamətdə zəruri tədbirlər sürətlə davam etdirilir.



Tədbir iştirakçıları Vətən müharibəsində şanlı ordumuzun qazandığı tarixi Zəfərdən qürur hissi ilə danışdılar. Bildirdilər ki, rəşadətli ordumuz ölkəmizin ərazi bütövlüyünü, suverenliyini tam təmin etdi. "İşğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı quruculuq-abadlıq işləri sürətlə davam etdirilir. Ermənilər tərəfindən dağıdılmış, talan edilmiş yurd yerlərimiz yenidən bərpa olunur. Soydaşlarımız doğma yerlərinə qayıdırlar. Xalqımız inanır ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə gələcək illərdə də daha böyük uğurlara, inkişafa nail olacağıq".

* * *

Mərkəzin təbliğat-təşviqat qrupunun "Vətən uğrunda" ansamblının üzvləri bir neçə hərbi hissədə əsgərlərlə görüşlər təşkil etdilər. Görüşlərdə Mərkəzin əməkdaşları Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin sürətlə davam etdirilməsindən, soydaşlarımızın yurd yerlərinə dönüşlərindən danışdılar. Bildirdilər ki, düşmənin dağıtdığı kənd və qəsəbələrimiz, şəhərlərimiz ən müasir memarlıq üslubunda inşa edilir. Vurğuladılar ki, belə tarixi, unudulmaz, əvəzsiz günləri xalqımıza bəxş edən Müzəffər Ali Baş Komandan və tariximizə əbədi Zəfər salnaməsi yazan şanlı ordumuzla hər bir Azərbaycan vətəndaşı qürur duyur. Qalib orduda xidmət edən hərbi qulluqçularımız da igid oğulların layiqli davamçıları kimi xidmət edirlər.

Görüşlər zamanı Mərkəzin əməkdaşlarının təşkil etdiyi yarışlarda, müsabiqələrdə hərbi qulluqçular fəal iştirak edərək Vətənə, xalqa sədaqətli olduqlarını, dövlətçiliyimizin tarixinə böyük maraq göstərdiklərini nümayiş etdirdilər. Daha çox fərqlənənlərə qiymətli hədiyyələr təqdim edildi. Sonra "Əsgərə məktub" layihəsi çərçivəsində Vətən müdafiəçilərinə ünvanlanmış qürur hissi ilə dolu məktublar onlara təqdim olundu. "Vətən uğrunda" ansamblının üzvlərinin ifa etdiyi mahnılar - Təbriz İsmayılovun sazda ifa etdiyi havalar, Sevinc Nəsirovanın vətənpərvərlik ruhlu mahnıları şəxsi heyət tərəfindən coşqu ilə qarşılandı. Əsgərlər Vətənə xidmətdən qürur hissi keçirdiklərini bildirdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

# Türkiyədə Qədim Roma dövrünə aid hərbi istehkam tapılıb





Mardinin Artuklu Universitetinin arxeoloqları Türkiyənin cənub-şərqindəki antik Hasankeyf şəhərində qazıntılar zamanı 1600 illik Roma hərbi istehkamının qalıqlarını aşkar ediblər.

Artuklu Universitetinin İncəsənət tarixi kafedrasının dosenti Zekai Erdalın rəhbərlik etdiyi ekspedisiya Hasankeyf qalasında qazıntıları davam etdirir.

Hasankeyf qalası Dəclə çayının sahilindən təxminən 135 metr yüksəklikdə möhkəm qaya kütləsi üzərində inşa edilib. Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Hasankeyfdə qazıntılar ilk dəfə 1980-ci illərdə onun gizli tarixini üzə çıxarmaq məqsədilə başlayıb. Qala təxminən 300 il davam edən Bizans hakimiyyəti dövründə dini funksiyaya malik idi. Sonralar Əməvilər, Abbasilər, Həmdanilər, Mərvanilər, Artuklar, Əyyubilər və Osmanlılar tərəfindən fəth edilib.

Qazıntı işləri nəticəsində tapılan 1600 il əvvələ, Roma imperatoru II Konstantinin dövrünə aid hərbi istehkamın qalıqları göstərir ki, bu tikili qədimdə romalı legionerlərinin sığınacaq yeri olub. Tarixi mənbələrdə Hasankeyfdə son Roma dövrünə aid hərbi tikili və qaladan bəhs edilir. Ancaq əvvəlki tədqiqatlarda burada istehkamın izinə rast gəlinməyib və bu, sadəcə olaraq, arxiv sənədlərində qeyd olunan məlumatlar idi.

İlk xristian imperatorunun oğlu II Konstantin dördüncü əsrdə hökmranlıq edən Şərqi Roma hökmdarı olub.

Mardindəki bu arxeoloji kəşflə bağlı materiallar dünyanın bir çox elmi nəşrində dərc olunub.

"Azərbaycan Ordusu"

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə ordusu bu il İraq və Suriya ərazisində 2 mindən çox terrorçunu məhv edib



Türkiyə Silahlı Qüvvələri 2024-cü il yanvarın 1-dən oktyabrın 10-dək bölgədə 2149 terrorçunu məhv edib, onlardan 1113-ü Şimali İraqda, 1036-sı isə Suriyanın sərhəd bölgələrində zərərsizləşdirilib.

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verir.

Nazirlik qeyd edib ki, təkcə son bir həftə ərzində bölgədə 42 terrorçu zərərsizləşdirilib.

Müdafiə Nazirliyinin sözçüsü Zeki Aktürk bildirib ki, İraqın şimalındakı "Pençe-Kilit" və "Pençe-Yıldırım" bölgəsindəki antiterror əməliyyatları aparılan ərazidə axtarışlar zamanı çoxlu sayda silah-sursat anbarı və mağara aşkar edilib.

Suriyadakı vəziyyətə toxunan Aktürk qonşu ölkədə sabitliyin tezliklə təmin edilməsi məsələsində Ankaranın mövqeyinin dəyişməzliyini vurğulayıb. O əlavə edib ki, bu, qaçqınların öz doğma torpaqlarına təhlükəsiz qayıtmasına şərait yaradacaq.

Aktürk qeyd edib ki, Livanda növbəti gərginlik fonunda Türkiyə sərhədlərinə böyük qaçqın axını qeydə alınmayıb.

## Gələn həftə NATO-nun “Steadfast Noon” nüvə təlimi başlayacaq



Şimali Atlantika Alyansı oktyabrın 14-də "Steadfast Noon" nüvə təliminə başlayacaq.

NATO-nun Baş katibi Mark Rütte bu barədə Böyük Britaniyanın Baş naziri Kir Starmerlə görüşmək üçün Londona gələrkən jurnalistlərə deyib.

Alyansın mətbuat xidmətinin məlumatına görə, təlimlər Belçika və Niderland ərazisində, Şimal dənizi akvatoriyası üzərində 13 üzv dövlətin 60-a yaxın təyyarəsinin iştirakı ilə keçiriləcək. Manevrlərdə, əsasən F-16 və F-35 qırıcıları, həmçinin B-52 bombardmançıları iştirak edəcək. Uçuşlar zamanı təyyarələrin göyərtəsində nüvə silahı olmayacaq.

Ənənəvi olaraq hər il keçirilən təlimlərdə taktiki nüvə zərbələri simulyasiya olunur. Manevrlərə həm nüvə silahına malik, həm də nüvə silahı olmayan NATO ölkələrinin onlarla təyyarəsi qatılır.

## Türkiyə “Eurofighter Typhoon” hərbi təyyarələrinin alınması üçün Berlindən təsdiq gözləyir



Türkiyə hökuməti "Eurofighter Typhoon" hərbi təyyarələrinin satın alınması ilə bağlı Berlindən müsbət cavab gözləyir.

"Deutsche Welle" xəbər verir ki, Almaniyanın silah ixracatından məsul İqtisadiyyat Nazirliyi DPA agentliyinin məsələ ilə bağlı sorğusunu "Almaniya hökuməti prinsip etibarilə davam edən proseslər barədə şərh vermir" şəklində cavablandırıb.

Məlumatda qeyd olunub ki, Türkiyə hökuməti Almaniya, İngiltərə, İtaliya və İspaniyanın formalaşdırdığı konsorsium tərəfindən istehsal edilən "Eurofighter Typhoon" hərbi təyyarələrindən 40 ədəd satın almaq istəyir. Bu təyyarələrin istehsalında Almaniya da iştirak etdiyi üçün ixrac proseduru rəsmi Berlin tərəfindən də təsdiq olunmalıdır. Türkiyə ixracla bağlı keçən ildən etibarən Almaniyadan təsdiq gözləyir. Milli müdafiə naziri Yaşar Güler daha əvvəl verdiyi açıqlamada Türkiyənin İngiltərə və İspaniyanın məsələ ilə bağlı təsdiqini aldığını bildirib. Xatırladaq ki, bir neçə gün əvvəl "Spiegel" qəzeti Türkiyəyə silah ixracını xeyli müddətdir məhdudlaşdıran federal hökumətin silah ixracatı ilə bağlı siyasətində bəzi dəyişikliklər etdiyini iddia etmişdi.

## Fransa gələn ilin əvvəlində Kiyevə “Mirage-2000” qırıcıları verəcək



Fransa 2025-ci ilin əvvəlində Kiyevə yeni raketlərlə təchiz olunmuş "Mirage-2000" qırıcıları tədarük etmək niyyətindədir.

Bu barədə Fransanın müdafiə naziri Sebastyan Lekornu bildirib.

"2025-ci ilin birinci rübündə "Mirage-2000" qırıcılarının Ukraynaya tədarükü planlaşdırılır. Onlar yeni hava-yer silahları və radio-elektron mübarizə vasitələrilə təchiz olunacaq", - deyə nazir qeyd edib. Fransa Prezidenti Emmanuel Makron hələ iyunun əvvəlində demişdi ki, Kiyevə "Mirage-2000" qırıcıları tədarük oluna bilər.

Rusiya isə öz növbəsində dəfələrlə bəyan edib ki, Qərbin hərbi yardımı Ukraynada vəziyyəti dəyişməyəcək və yalnız münaqişənin uzanmasına səbəb olacaq.

AZƏRTAC-ın materialları əsasında

# İdman

## Azərbaycanın yunan-Roma güləşçisi Qazaxıstanda bürünc medal qazanıb



Azərbaycanın yunan-Roma güləşçisi Kamran Rəcəbli Qazaxıstanın Çimkənd şəhərində keçirilmiş beynəlxalq turnirdə bürünc medal qazanıb.

72 kiloqram çəki dərəcəsində çıxış edən idmançı Akademik Mərdan Saparbayevin xatirəsinə təşkil olunmuş ənənəvi yarışda fərqlənib.

Qeyd edək ki, turnirdə Qazaxıstan, Azərbaycan, Rusiya, Özbəkistan, Qırğızıstan, Tacikistan və Çin güləşçiləri mübarizə aparıb. Azərbaycanın U-20 milli komandası yarışda məşqçi Akif Əliyevin rəhbərliyi altında 4 idmançı ilə təmsil olunub.

## Azərbaycan qılıncoynadanı İsveçdə qızıl medal qazanıb



Qılıncoynatmanın şpaqa növü üzrə yeniyetmələrdən ibarət Azərbaycan milli komandasının üzvü Vahab Fətullayev İsveçin Örebro şəhərində keçirilən beynəlxalq turnirdə qızıl medal qazanıb.

Qrup mərhələsini 5 qələbə ilə başa vuran şpaqaçımız 17 yaşadək oğlanların fərdi mübarizəsində pley-offa yüksəlib. Finala gedən yolda Norveç, Danimarka, Estoniya və İsveçi təmsil edən rəqiblərinə qalib gələn V.Fətullayev həlledici qarşılaşmada Filip Zimmermana (İsveç) 15:10 hesabı ilə qalib gələrək fəxri kürsünün ilk pilləsində yer alıb.

Qeyd edək ki, beynəlxalq turnirdə 10 ölkədən ümumilikdə 100-ə yaxın idmançı mübarizə aparıb.

## Avropa çempionatında çıxış edəcək Azərbaycan boksçuları müəyyənləşib




Bolqarıstanın paytaxtı Sofiyada keçiriləcək U-22 Avropa çempionatında çıxış edəcək Azərbaycan boksçuları bəlli olub.

Ölkəmizi yarışda 13 boksçu təmsil edəcək. Doqquz gün davam edəcək turnirdə Tural Sarıyev (48 kiloqram), Nicat Hüseynov (51 kiloqram), Amin Məmmədzadə (54 kiloqram), Kamil Babayev (57 kiloqram), Ruslan Qədirov (63,5 kiloqram), İlqar Salahov (67 kiloqram), Şəmsi Şahbazov (71 kiloqram), Fərhad Şeydayev (75 kiloqram), Murad Allahverdiyev (80 kiloqram), Şeyid Seyidov (86 kiloqram), Mehparə Məmmədov (48 kiloqram), Marjona Savriyeva (50 kiloqram) və Zeynəb Rəhimova (54 kiloqram) qüvvəsini sınayacaq.

Yarışda ədalət təmsilçiləri sırasında beynəlxalq dərəcəli azərbaycanlı hakim Anar Nağdiyev də yer alacaq.

Qeyd edək ki, Avropa çempionatına oktyabrın 12-də start veriləcək.

AZƏRTAC-ın materialları əsasında

Məsul katib
mayor Ceyhun CƏFƏRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
Rəşid HÜSEYNOV

Lisenziya № 361
Sifariş № 634
Nüsxə 4650